**İsmayılova Nigar Nazim qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nigumismayilova95@gmail.com

# ƏDƏBİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ İMKANLARI

***Açar sözlər:*** *təlim, informasiya, dərs, inteqrasiya,motivasiya, təhsil*
***Key words:*** *training, information, lesson, integration, motivation, education*
***Ключевые слова:*** *обучение, информация, урок, интеграция, мотивация, образование*

Məlumdur ki,təhsil proqramında mövzunu daha dərindən mənimsənilməsi üçün inteqrasiya əsas məsələlərdən biri kimi təqdim edilir.Qeyd etdiyimiz proqramda inteqrasiya cədvəl şəklində verilir, məzmun, strategiya və qiymətləndirməyə dair bölmələr arasında sıx əlaqə yaradılır.Ədəbiyyat dərslərinin gənc nəslin elmli və bir şəxsiyyət kimi inkişaf edərək formalaşmasında mühüm əhəmiyyəti vardır.Yeni dövrün tələblərinə cavab verən müasir dərs müstəqil və məsuliyyətli pedaqoji ustalığa əsaslanır.Tədris edilən mövzulara fənn kurikulumlarının tələbləri baxımından yanaşmaq,şagirdlərin müstəqil fikir söyləmələri,dərindən düşünmələri,mühakimə yürütmələri üçün müxtəlif üsul və vasitlərdən istifadə etmək müəllimlərin ümdə vəzifəsidir.

Bildiyimiz kimi, inteqrativ üsuldan istifadə bir anlayış olaraq son dövrlərdə işlədilir və təlim prosesində istifadəsi tələb olunur.İnteqrasiya bədii materialın məzmunundadır,ədəbi-bədii nümunə də dərsliklərdə inteqrativ şəkildə verilir.İnteqrativlik iki şəkildə özünü təsdiq edir: fənlərarası və fəndaxili əlaqələr əsasında – ona yaxın olan fələrin inteqrasiyasında və yaxud da fənnin daxilindəməzələ öz həllini tapır.Ədəbiyyat fənni ele bir fəndir ki, incəsənətin bütün sahələrini, eyni zamanda Azərbaycan dili, tarix, coğrafiya, heyat bilgisi, riyaziyyat, informatika, təsviri incəsənət və s. fənləri inteqrasiya edə bilir.Ədəbiyyat tədrisində inteqrasiya, ilk növbədə, eyni sinifdə və müxtəlif siniflərdə söz sənəti, hər hansı mövzu, problem üzrə əlaqələndirilməsi başa düşülür.Təcrübə də onu göstərir ki, şagirdlər yeni bilik və bacarıqları əvvəl qazanılmış bilik və bacarıqlar zəminində mənimsədikdə, dediyimiz kimi, mövzu daha mükəmməl, daha dərindən qavranilir, yaddaqalan olur, eyni zamanda dərslərin maraqlı və məzmunlu qurulması, onlarda ədqiqatçılıq meyillərinin yaranması üçün vacib şərt sayılır.Əldə olunan bilik və bacarıqların əlaqələndirilməsində, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsində, ədəbi materialların ayrı – ayrı tədris vahidlərində cəmləşdirilməsində inteqrasiya mühüm vasitədir.Təhsil islahatında reallaşan kurikulumda bu məsələ konseptual sənədlərdə standartlarla təmin olunmuş, fənn kurikulumlarında inteqrasiya imkanları nümunələrlərlə şərh edilmişdir.Burada müəllimdən təlim işini planlaşdırarkən konseptual sənədlərdən səmərəli istifadə etmək bacarığı tələb olunur (1, 4-6).

Fəal təlimdə şagird-tədqiqatçı, müəllim –fasilitator kimi çıxış etməli, şagirdlərin idrak fəallığı tədqiqatçılıq xarakteri kəsb etməli, onların biliklərin mənimsənilməsi prosesində bərabərhüquqlu subyekt rolunda iştirakı təmin olunmalıdır. Müəllim planlı və məqsədyönlü şəkildə siniflə əməkdaşlıq edərək problemli situasiyaları təşkil etməli, şagirdlər qarşısında tədqiqat xarakterli məsələlər qoymaqla, onların həllinə metodik kömək göstərməli, şagirdləri biliklərin müstəqil əldə edilməsi yoluna istiqamətləndirməlidir.

- fəal təlimdə müəllimin fasilitator kimi fəaliyyəti şagirdləri fəallaşdırmaq üçün təlim diskusiyalarının, dialoji qarşılıqlı təsirdə açıq mübahisə və mühakimələrin, məntiqi ümumiləşdirmələrin və yaradıcı təxəy-yülün inkişafına stimul yaradır;
- fəal təlimdə qeyri-standart, strukturlaşmamış dərs tiplərinə -dərs-işgüzar oyunlar, yarış dərsləri, fantaziya dərsləri, dialoq dərlər, dərs-rollu oyunlar, dərs –konfranslar, inteqral dərslər və s. kimi təşkilati-didaktik strukturlara geniş instinad imkanları mövcuddur;
- fəal və inteqrativ təlim məntiqi düşünmə, tənqidi təfəkkür, yaradıcı yanaşma və yaradıcı tətbiqetmə kimi idrak fəaliyyəti əməliyyatların inkişafının motivləşməsinə stimul yaradır. Fəal təlimdə şagirdlərin fəal idrak mövqeyinin saxlanılması üçün psixoloji dəstək göstərilməli, sinifdə hörmət və inam mühiti daim saxlanılmalı, müəllim tərəfindən şagirdlərin stimullaşdırılması diqqət mərkəzində saxlanılmlıdır. Fəal əməkdaşlıq və birgə iş vərdişlərinin inkişaf etdirilməsi yolu ilə sosial birgəfəaliyət və birgə yaşayış qaydalarının mənimsənilməsinə təminat verilməlidir. Bizim fikrimizcə, interaktiv metodların psixoloji konsepsiyası sistemli təhlil olunduqda, onun başlıca paradiqması - şəxsiyyət yönümlü təlim prinsipi olmalıdır (2, 289).

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. B., "Təhsil" jurnalı, 2013, N-10, səh.4-16

2.Əlizadə Ə.Ə., Əlizadə H.Ə.Yeni pedaqoji təfəkkür: psixopedaqogiyaya giriş. B., ADPU, 2008, 479 səh.

3. Fəxrəddin Allahverdi oğlu Yusifov, Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı 2017, 304 səh.

4.Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərdə ədəbiyyatın tədrisi metodikası. Bakı: Naksuana, 2008

5.Abbasov Ə. Ümumi təhsil strategiyaları: bəzi psixopedaqoji xüsusiyyətlər.// Kurikulum, 2013,№ 1

6.Muradova S. Tarix fənninin digər fənlərlə inteqrasiyası. // Kurikulum, 2012, № 1

7.Həsənli B. Təhsilin inkişaf strategiyası və müasir dərsin təşkili problemləri.// Azərbaycan məktəbi, 2014, № 6

8.Mikayılov Ş., Bəkirova A. Və b. Ədəbiyyat dərslərində inteqrasiyadan istifadənin imkan və yolları. Bakı, 2006

9.Haqverdiyev K. "Həyat bilgisi" fənnində inteqrativlik . // Kurikulum, 2008, № 2

**Opportunities to use interactive training methods in literature subject**

**Summary**

This article deals with the applying integration standarts in teaching Literature and its effectiweness developing students theoretical knowledge into practice and scientific view to the life.

Today teaching literature required to integrate İCT skills or Music during learning process.This article presents different ways of integration into the classroom and motivates teachers and students for learning.The types of integr ation: inter-subject and intra-subject integration have been mentioned in this article and shown how to devolp clasroom activities effectively

**Возможности использования методов интерактивного обучения в литературном предмете**

**Резюме**

Эта статья посвящена применению стандартов интеграции в преподавании литературы и ее эффективности, развивая теоретические знания студентов на практике и научный взгляд на жизнь.

Сегодня учебная литература необходима для интеграции навыков ИКТ или музыки в процессе обучения. В этой статье представлены различные способы интеграции в классную комнату и мотивирует учителей и учащихся к обучению. Типы интеграции: меж-предметная и внутри-предметная интеграция были упомянуты в этой статье. статья и показано, как эффективно развить классную деятельность

**Rəyçi: dos. F.Yusifov**